# Müasir texnologiyalar yeni medianın tələblərinə uyğunlaşdırılır



**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Bakı Dövlət Universiteti (BDU) ilə birgə milli mətbuatın 150 illik yubileyi çərçivəsində hazırladığı "İctimaiyyətlə əlaqələrin əsasları" adlı dərs vəsaitinin təqdimatı keçirildi.**

İİTKM-in İcraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlının elmi redaktorluğu ilə ərsəyə gəlmiş dərs vəsaitinin müəllifləri Vüqar Zifəroğlu, Aynur Nəsirova, Xatirə Hüseynova, Pərvanə İbrahimova, Vəfa İsgəndərova, Afət Yaqubova, Vəli Əlibəyov, Yedgar Cəfərov, Zənurə Talıbova, Natiq Pənahlıdır.

Təqdimat mərasimində çıxış edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı kitabın Azərbaycan milli mətbuatının 150 illik yubileyinə önəmli töhfə, tələbələr üçün mühüm dərs vəsaiti, dövlət və özəl qurumların ictimaiyyətlə əlaqələr sahəsində çalışan mütəxəssisləri üçün isə faydalı mənbə olduğunu bildirdi: "İki il əvvəl başladığımız proses bu gün öz bəhrəsini verir. Bu müddət ərzində texnologiya, xüsusilə də süni intellekt (AI) sahəsində baş verən dəyişikliklər hər birimizi düşündürməyə vadar edir. Artıq süni intellekt yalnız əşyaları və mətnləri deyil, ətrafdakı obyektləri də tanıya bilir.

İctimaiyyətlə əlaqələr (PR) burada sıradan bir taktika deyil, geniş strateji yanaşma tələb edən, özündə psixologiyanı da birləşdirən çoxşaxəli sahədir. Əsas məqsəd cəmiyyətin nəbzini tutmaq, dəyişən ictimai rəyə uyğun hərəkət etməkdir. Artıq süni intellekt ictimaiyyət tərəfindən qəbul olunub və bu istiqamətdə ciddi irəliləyişlər baş verir. Qarşıdakı dövr bizi kvant fizikası və süni intellekt sahələrində daha sərt rəqabətlə üz-üzə qoyacaq. Əgər bir il sonra yeni kitab yazmağa qərar versək, şübhəsiz ki, texnologiya onun hər səhifəsinə sirayət edəcək. Tarix boyu bu cür texnoloji inqilablar yaşanıb. Amma bu günün reallığı odur ki, gələcəyin əsas iki istiqaməti suni intellekt və enerji sahələridir. Sevindirici haldır ki, ölkəmiz bu iki sahədə də cənab Prezidentin qətiyyətli rəhbərliyi ilə uğurla irəliləyir".

BDU-nun rektoru Elçin Babayev milli mətbuatın 150 illik yubileyi ərəfəsində belə bir kitabın ərsəyə gəlməsinin mühüm hadi-






sə olduğunu qeyd etdi. Rektor bildirdi ki, BDU ölkədə jurnalist kadrlar hazırlayan əsas mərkəzdir. Son illər Jurnalistika fakültəsinin fəaliyyəti islahatlar nəticəsində müasir texnologiyalara, yeni medianın tələblərinə uyğunlaşdırılıb. Bu tədris ilindən isə fakültədə magistratura səviyyəsində "İctimaiyyətlə əlaqələr" adlı yeni ixtisas açılıb. Yeni dərs vəsaiti tədris prosesinin vacib elementi olmaqla yanaşı, informasiya cəmiyyətində uğur qazanmaq istəyən hər bir fərd və təşkilat üçün strateji bələdçi kimi çıxış edəcək. Kitabın əhəmiyyətli üstünlüklərindən biri də ictimaiyyətlə əlaqələr sahəsinin Azərbaycan reallığı ilə əlaqələndirilməsidir.

Milli Məclisin deputatı, Bakı Slavyan Universitetinin Jurnalistika kafedrasının müdiri, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə qeyd etdi ki, bu nəşr geniş spektri əhatə edən, dövlət, özəl və ictimai qurumlar üçün önəmli olan ictimaiyyətlə əlaqələrin əsaslarını ortaya qoyur. PR artıq yalnız ictimai rəyə təsir vasitəsi deyil, daha geniş strateji funksiyalara malikdir. Bu sahə cəmiyyətin idarə olunmasında mühüm rol oynayır. Kitab da məhz bu zərurətdən doğdu. Çünki bizə müasir dövrdə PR sahəsində nəzəri və praktik yanaşmaları əhatə edən bir toplu lazım idi.

Millət vəkili Hikmət Babaoğlu isə bildirdi ki, söz bizdən əvvəl yaranıb və onun dəyərini ən yaxşı anlayanlar da jurnalistlərdir. Hərçənd ki, bu gün çap mediası bir qədər arxa plandadır, lakin sözün gücü və funksiyası hələ də qüvvədədir.

BDU-nun Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Vüqar Əliyev dedi: "İki il ərzində biz dəfələrlə kitabın ideyasını müzakirə etdik və müəlliflərin hər biri bu yükün məsuliyyətini dərk edərək çalışdı. Çünki PR mühüm sahədir, amma bu istiqamətdə müasir, əhatəli və yeni ədəbiyyat demək olar ki, yoxdur. 2000-ci illərin əvvəllərində yazılan mənbələr isə artıq köhnəlib. Bu gün təqdim olunan kitab yalnız tələbələrə deyil, PR sahəsində çalışan, maraqlanan hər kəsə lazımdır. Belə ki, PR-ın 400-ə yaxın tərifi var və onların hər biri bu sahəyə fərqli yanaşma təqdim edir. Əsas mahiyyət isə imicin idarə olunmasıdır. Siyasətçilər tez-tez deyirlər ki, imic hər şeydir, bu da göstərir ki, PR bütün təbəqələr üçün əhəmiyyətlidir".

Multimedia və elektron kommunikasiya kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli kitabın əhəmiyyətindən danışdı: "PR anlayışı mürəkkəbdir, tərifləri çoxdur, amma kitabda bu çətinliklər ustalıqla cilalanıb. Biz informasiya bolluğu dövründə yaşayırıq və bu zənginliyi sistemləşdirməyə ehtiyac var. PR jurnalistika deyil, onun metodları daha incə, reklamdan fərqli olaraq daha yumşaqdır. Bu vəsait biz müəllimlər üçün bilikləri sistemləşdirməkdə, tələbələrə doğru istiqamət göstərməkdə ciddi rol oynayacaq".

Siyasi elmlər doktoru Hikmət Məmmədov, Azərbaycan Beynəlxalq Bankının Marketinq departamentinin direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Yedgar Cəfərov kitabın ictimaiyyətlə əlaqələrin nəzəri və praktiki əsaslarını əhatə edən fundamental əsər olduğunu vurğuladılar.

Sonda Bakı Dövlət Universiteti (BDU) ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalandı. Memorandumu BDU-nun rektoru Elçin Babayev və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı imzaladılar.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**

Respublika .-2025.- 16 iyul (№ 144).- S.7.